## İNCƏSƏNƏT

**UOT 792.03**
**https://doi.org/10.59849/2218-4783.2026.1.230**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MUSİQİ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASI VƏ İNKİŞAFINDA ÜZEYİR BƏY HACIBƏYOVUN ROLU

# THE ROLE OF UZEYIR BEY HAJIBEYOV IN THE FORMATION AND DEVELOPMENT OF MUSICAL CULTURE IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

**Ələkbər QASIMOV***

## XÜLASƏ

Məqalədə yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının böyük sənətkarı, eləcə də ümumbəşəri dahi şəxsiyyət olan Ü.Hacıbəyovun muxtar respublikada musiqi mədəniyyətinin formalaşması və inkişafındakı xidmətləri əks olunur. Üzeyir bəyin ecazkar musiqisi XX əsrin əvvəllərində qədim Naxçıvan diyarında da səslənmişdir. Məhz 1910-cu ildən başlayaraq onun musiqili əsərləri Naxçıvan Teatrında hazırlanıb nümayiş etdirilir.

Qeyd olunur ki, 1937-ci ildə öz seçicilərilə görüşmək üçün Naxçıvana gələn SSRİ Ali Sovetinin deputatlığına namizəd Ü.Hacıbəyov şəhərdə olduğu müddətdə həm də muxtar respublikanın mədəni həyatı, musiqi mühitilə maraqlanır, ziyalılarla, musiqiçilərlə görüşmüşdür. O, həmçinin dram teatrda olub "Ər və arvad" operettasının məşq prosesində iştirak edərək məmnunluğunu bildirmiş və yaradıcı heyətə uğurlar diləmişdir.

Üzeyir bəyin təklifi əsasında yerli hökumətin qərarı ilə Naxçıvan şəhərində uşaq musiqi məktəbi yaradılmış və dahi bəstəkar buraya "Berlin" markalı pianino, musiqi nəzəriyyəsi və tarixinə dair, o cümlədən xeyli notların toplandığı bir neçə kitab bağışlamışdır. Naxçıvan Şəhər Uşaq Musiqi Məktəbinin yetirmələri hesabına artıq 1940-cı illərin əvvəlində muxtar respublikanın musiqi mühitində yeni bir canlanma, yeni nəfəs yaranmışdı.

Məhz 40-cı illərdə Naxçıvan Dövlət Dram Teatrında dahi bəstəkarın operettaları ilə yanaşı əksər operalarının da tamaşaya qoyulması aktyor heyətinin daha da püxtələşməsinə ciddi təsir göstərmişdir. 1946-cı ildə məhz Ü.Hacıbəyovun təşəbbüsü ilə Naxçıvanda ilk dəfə xalq çalğı alətləri orkestri yaradılmış və onun tərkibində çox istedadlı, peşəkar musiqiçilər dəstəsi formalaşmışdı.

Bundan başqa məqalədə dahi bəstəkarın yetirmələri olan Tofiq Quliyevin. Məmməd Cavadovun, Məmməd Nəsirbəyovun və Məmməd Məmmədovun istər Naxçıvanın, istərsə də Azərbaycanın musiqi mədəniyyətinin inkişafındakı xidmətlərindən də ətraflı şəkildə bəhs olunur.

**Açar sözlər:** *Üzeyir Hacıbəyov, muxtar respublika, Naxçıvan, musiqi mədəniyyəti, operetta, opera, musiqiçi, tamaşa.*

## ABSTRACT

The article examines the contributions of Uzeyir Hajibeyov an outstanding artist not only of the Azerbaijani people but of the entire Turkic world, as well as a universally recognized genius-to the formation and development of musical culture in the autonomous republic. Uzeyir bey's enchanting music was performed in the ancient land of Nakhchivan as early as the beginning of the 20th century. Starting from 1910, his musical works were prepared and staged at the Nakhchivan Theatre.

* AMEA Naxçıvan Bölməsi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, E-mail: elekberqasimov@mail.ru
ORCID: 0009-0008-7370-7257

It is noted that in 1937, when Uzeyir Hajibeyov came to Nakhchivan to meet with voters as a candidate for deputy of the Supreme Soviet of the USSR, he also showed keen interest in the cultural life and musical environment of the autonomous republic, meeting with intellectuals and musicians. He visited the Drama Theatre as well, took part in the rehearsal process of the operetta "Husband and Wife," expressed his satisfaction, and wished success to the creative team.

On the initiative of Uzeyir bey, and by decision of the local government, a children's music school was established in the city of Nakhchivan. The great composer donated to the school a "Berlin" – brand piano, several books on music theory and history, as well as a considerable collection of sheet music. Thanks to the graduates of the Nakhchivan City Children's Music School, a new revival and fresh momentum emerged in the musical environment of the autonomous republic by the early 1940s.

It was precisely in the 1940s that the staging of not only the great composer's operettas but also most of his operas at the Nakhchivan State Drama Theatre had a significant impact on the further professional maturation of the acting troupe. In 1946, at the initiative of Uzeyir Hajibeyov, the first folk instruments orchestra was established in Nakhchivan, and a group of highly talented and professional musicians was formed within its structure.

In addition, the article provides a detailed discussion of the contributions of the great composer's pupils – Tofig Guliyev, Mammad Javadov, Mammad Nasirbayov, and Mammad Mammadov – to the development of the musical culture of both Nakhchivan and Azerbaijan as a whole.

**Keywords:** *Uzeyir Hajibeyov, autonomous republic, Nakhchivan, musical culture, operetta, opera, musician, performance.*

***"Bir azərbaycanlı, Azərbaycanın Prezidenti kimi fəxr edirəm ki, Azərbaycan xalqı belə zəngin mədəniyyətə, zəngin incəsənətə, peşəkar musiqiyə malikdir. Azərbaycanda peşəkar musiqinin əsasını böyük Üzeyir Hacıbəyov qoyubdur. Onun məktəbi, tələbələri, silahdaşları XX əsrdə Azərbaycanda çox yüksək musiqi mədəniyyəti yaradıblar. Biz bununla fəxr edirik"***

**Heydər Əliyev**
**Azərbaycan xalqının Ümummilli lideri**

## GİRİŞ

Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü (1945), Azərbaycan Dövlət Konservatoriyasının rektoru (1928-1929; 1939-1948), professor (1940), Azərbaycan EA İncəsənət İnstitutunun direktoru (1945-1948), Azərbaycan Bəstəkarlar İttifaqının sədri (1938-1948), SSRİ xalq artisti (1938), SSRİ Dövlət mükafatları laureatı (1941; 1946), SSRİ Ali Sovetinin deputatı (1937; 1941) professional musiqimizin, o cümlədən milli opera və operettamızın banisi olan Üzeyir bəy Hacıbəyovun bu çoxşaxəli fəaliyyəti hər zaman bir sıra tədqiqatçıları, alimləri – musiqişünasları, teatrşünasları, ədəbiyyatşünasları, kinoşünasları, jurnalistləri, o cümlədən teatrları və kinostudiyaları da özünə cəlb etmişdir. Bu mənada istər milli, istərsə də xarici sənətkarlar da bu dərin və tükənməz irsə müraciət etməklə ondan səmərəli şəkildə yararlanmışlar.

Ü.Hacıbəyov yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının böyük sənətkarı, eləcə də ümumbəşəri dahi şəxsiyyətdir. Bəstəkarlıq fəaliyyətinə 1908-ci ildə "Leyli və Məcnun" operası ilə başlamaqla, xalq əfsanələrindən qaynaqlanan bir sıra operalar da bəstələmişdir. "Koroğlu" istisna olmaqla, bütün opera və operettalarının libretto və mətnləri Üzeyir bəyi həm də bir dramaturq kimi şöhrətləndirmişdir.

Görkəmli bəstəkar, xalq artisti Tofiq Quliyev "Ər və arvad", "Arşın malalan" və "O olmasın, bu olsun!" operettalarını 1920-ci ilə qədərki Azərbaycan həyatının güzgüsü adlandırmışdır. Məhz bu operettalar ilə dahi Üzeyir bəyin ecazkar, əsrarəngiz və misilsiz musiqisi XX əsrin əvvəllərində – 1910-cu ildən qədim Naxçıvan diyarında da səslənmiş, yerli əhalilə yanaşı, sanki bu torpağın təbiə-

tini – əzəmətli dağlarını, sıldırım qayalarını, sakit axan çaylarını, gur şəlalələrini, şaqraq bulaqlarını, vüqarlı çinarlarını, əlvan çiçəklərini də ovsunlamışdır.

## ÜZEYİR BƏYİN OPERA VƏ OPERETTALARI NAXÇIVAN SƏHNƏSİNDƏ

Naxçıvan Teatrı 1910-cu ildən yeni bir inkişaf mərhələsinə qədəm qoydu. Bu dövrdə teatra Böyük xan Naxçıvanski rəhbərlik edirdi. Həmin vaxt teatrın kollektivi Rza Təhmasib, Əli Xəlilov, Həsən Səfərli, Rza İsfəndiyarlı, Xəlilağa Hacılarov, Fərəc Kəngərli, Məmməd Rəhimov, Novruz Musayev kimi istedadlı gənc rejissor, aktyor və musiqiçilərlə zənginləşmişdi.

Məhz həmin ildən başlayaraq Üzeyir bəy Hacıbəyovun və Zülfüqar bəy Hacıbəyovun musiqili əsərləri Naxçıvan Teatrında hazırlanıb nümayiş etdirilir. Belə ki, Azərbaycanın həmin vaxtlardan məşhurlaşan komediya aktyoru Mirzəağa Əliyevin başçılıq etdiyi qastrol heyəti və bəstəkar Zülfüqar Hacıbəyov 1910-cu ilin payızında Tiflis və İrəvan şəhərlərindən dönərkən Naxçıvana gəlmişlər. İlk milli və peşəkar aktrisalarımızdan sayılan Göyərçin xanımla qastrol zamanı tanış olub ailə quran M.Əliyev onu da özü ilə Naxçıvana gətirmişdir.

Mirzəağa Əliyev bu səfər barəsində xatirələrində belə yazır: “Naxçıvanda müvəffəqiyyətimiz çox oldu. Buranın müəllimləri, ziyalıları və teatr həvəskarları bizə əldən gələn hörməti və köməkliyi göstərdilər. 1910-cu ilə qədər heç bir yerdə Azərbaycan qadınlarını teatrda görmədiyim halda, Naxçıvanda arvadlardan ötrü gündüz tamaşaları göstərdik və həmişə də tamaşa salonu başdan-başa qadınlarla dolu olurdu” [Xəlilov, 1964, s. 29].

Naxçıvan şəhərində oynanılan 10-a yaxın tamaşa Üzeyir bəy Hacıbəyovun “Ər və arvad” və “Məşhədi İbad”, həmçinin Zülfüqar bəy Hacıbəyovun “50 yaşında cavan” operettalarından ibarət idi. “Məşhədi İbad” tamaşası Zülfüqar bəyin, Mirzəağa Əliyev və Göyərçin xanımın bilavasitə təşəbbüs və köməklikləri ilə hazırlanmış, rejissorluğu M.Əliyev, dirijorluğu isə Z.Hacıbəyov etmişdir. Tamaşada Rza Təhmasib, Mirzə Ələkbər Süleymanov və digər gənc naxçıvanlı aktyorlar da iştirak etmişlər. Bu tamaşalardan bir neçəsi şəhərdəki qız məktəbinin xeyrinə də göstərilib. Sonra Culfaya gedən heyət Məmməd Səid Ordubadinin və Əliqulu Qəmküsarın yaxından köməklikləri ilə orada da həmin tamaşaları göstəriblər.

“1911-ci ildə Zülfüqar Hacıbəyov yenidən Naxçıvana gəlir və xeyli müddət – bir ilə yaxın burda yaşayır və yaradır. Onun təşəbbüsü ilə Naxçıvan Teatrında fəaliyyət göstərən musiqiçilər dəstəsi (A.Kəngərli və H.Təhmasibbəyov – tar, M.Sultanov – kamança, M.Sultanov – klarnet, Ə.Şərifov – fleyta) üzvlərinin sayı artırılaraq xalq çalğı alətləri orkestri yaradılır. Məhz həmin ildə bəstəkarın özünün də burada yazıb bitirdiyi “Evlikən subay” operettası ilk dəfə Naxçıvan Teatrında tamaşaya qoyulub və 1912-ci ilin mart ayında göstərilmişdir” [Xəlilov, 1964, s. 30].

Naxçıvan şəhərindəki “Qız Məktəbi”ndə dram dərnəyi yaradılarkən, yəni 1917-ci ilin sonlarında yazıçı və pedaqoq Rəşid bəy Əfəndiyev həmin məktəbin müdiri vəzifəsində çalışırdı. Məktəbin aparıcı müəllimi, görkəmli maarif xadimi Nazlı xanım Nəcəfovanın böyük səyi və təşəbbüsü, həmçinin Rza Təhmasibin yaxından köməkliyi ilə bu məktəbdə, Naxçıvanda ilk dəfə olaraq qızlardan ibarət dram dərnəyinin yaradılması və həmin dərnəyin ilk işi olaraq 1917-ci ilin noyabrında Üzeyir Hacıbəyovun “Arşın malalan” operettasının hazırlanıb göstərilməsi Azərbaycanın təhsil və mədəniyyət tarixində görünməmiş, böyük və unudulmaz bir hadisə idi.

“Naxçıvan Teatrının tarixi” kitabında müəllif – Naxçıvan Teatrında 1914-cü ildən aktyor, 1920-1936-cı illərdə isə ilk direktor kimi fəaliyyət göstərmiş, Naxçıvan MSSR əməkdar artisti Əli Xəlilov aktyor R.İsfəndiyarlı haqqında yazır: “Səhnə yaradıcılığına 1910-cu ildən başlamış Rza İsfəndiyarlı bu gün də Naxçıvan Teatrının səhnəsində çalışır, səmərəli fəaliyyətinə görə ona əməkdar artist adı verilmişdir. Aktyor operettalarda da çıxış edərək, “Arşın mal alan”da Əsgərin, “Məşhədi İbad”da Sərvərin... rollarını özünəməxsus ustalıqla oynamışdır. R.İsfəndiyarlının yaradıcılığının bir xüsusiyyəti də onun yaxşı səsə malik olmasından ibarətdir.

O, eyni zamanda günün vacib məsələlərinə dair özünün yazdığı kupletlərlə, meyxanalarla teatrda çıxış etmişdir. Bu sahədə 1918-ci ildən aktyor R.İsfəndiyarlı öz kəskin satirası ilə yüksək sənətkarlığa nail olur" [Xəlilov, 1964, s. 26].

Bu yerdə maraqlı bir məqamı qeyd etmək yerinə düşər. İstedadlı aktyor 1930-cu illərdən üzübəri "Məşhədi İbad" tamaşasında Hambal obrazını da ifa etməyə başlamışdır. O, məhz Hambal üçün gözəl bir meyxana yazaraq onu toy səhnəsində ifa edirdi. Bu meyxana ilə Hambal Məşhədi İbada kələk gələrək onun pullarını mənimsəyənləri və ikinci abbasını ona verməkdən imtina edən Məşhədinin özünü də ifşa edirdi:

Deməyin ki, hambalam, anlayıram məsələni,
Lotular Məşdi İbada yaxşı qurdular tələni.
Gəldi əvvəlcə kələk Məşdiyə Rüstəm bəy özü,
Aldı beş min manatı. Sonra dəyişdirdi sözü.
İki min aldı Qoçu Əsgər, ötürdü o yana,
Eşidib fit səsini sonra tüpürdü dabana.
Düşdü fürsət adama oxşamaz Həsənquluya,
Verdi beş yüz manatı bax bu lotu bambuluya.
Rza bəy: şimdi, nasıl, şöylə, əfəndim deyərək,
Bu da bu ləhcə ilə Məşdi İbada gəldi kələk.
Bu Həsən – işto takoy Məşdiyə meymun da dedi,
Suda verməklə tutub əlli manat aldı, yedi.
Bivec oğlu Məşədi tikdi gözün abbasıma,
Hamıya payladı pul, atmadı bir şey tasıma.

Bu mətn ilk dəfə Azərbaycan SSR Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu tərəfindən tərəfindən tərtib olunmuş 10 cildlik "Üzeyir Hacıbəyov. Əsərləri" kitabının 1964-cü ildə EA Nəşriyyatında çap olunmuş birinci cildinin "İzahlar" bölməsində verilmişdir [Bəhmənli, 2002, s. 311]. Lakin burada meyxananın ilk dəfə çap olunduğu göstərilməklə kifayətlənilmiş, müəllifin kim olduğu göstərilməmişdir. Bu da təbiidir, kitabın tərtibçiləri həmin meyxana müəllifinin məhz Naxçıvan DMD Teatrının aktyoru, əməkdar artist Rza İsfəndiyarlı olduğundan bixəbər idilər.

R.İsfəndiyarlının müəllifi olduğu "Hambalın meyxanası" 1920-ci illərin əvvəllərindən bugünümüzədək – 2025-ci ilədək Naxçıvan Teatrında yeni-yeni quruluşlarda (1940, 1963, 1985, 1993) səhnəyə qoyulan "Məşhədi İbad" tamaşalarında daim səslənmiş və səslənməkdədir. Hambal bütün toy iştirakçılarının qarşısında dövrə vurub rəqs edərək bu meyxananı oxuyarkən tamaşaçı onun nə qədər dərin düşüncəli və dəqiq müşahidəçi olduğuna heyran qalmaya bilmir.

Burada vurğulamaq yerinə düşər ki, Naxçıvan Teatrında "O olmasın, bu olsun!" operettası ötən əsrdə həmişə "Məşhədi İbad" adı ilə tamaşaya qoyulmuşdur. "1963-cü ildə teatrda operetta İbrahim Həmzəyevin quruluşunda səhnəyə qoyuldu. Quruluşçu rəssamı Məmməd Qasımov, dirijoru Məmməd Məmmədov olan tamaşanın premyerası mart ayının 1-də olmuşdur. Əsas rolları Əyyub Haqverdiyev (Məşhədi İbad), Zəroş Həmzəyeva və Sofya Hüseynova (Gülnaz), Əkbər Qardaşbəyov (Sərvər), Mir Həsən Mirişli (Rüstəm bəy), Kazım Hüseynov (Hambal), Tamara Məmmədova (Sənəm) ifa etmişdilər. Premyera mart ayının 1-də olmuşdur" [Rəhimli & Vəzirov, 2008, s. 193].

"1985-ci il aprelin 10-da "Məşhədi İbad" Baxşı Qələndərlinin yeni quruluşunda təqdim olundu. Quruluşçu rəssamı M.Qasımov, dirijoru F.Əsədov olan tamaşada əsas rolları İskəndər Abdullayev (Məşədi İbad), Elxan Şeyxov (Sərvər), Yasəmən Ramazanova (Gülnaz), Əkbər Qardaşbəyov (Rüstəm bəy), Tamara Məmmədova (Sənəm), Aydın Şahsuvarov (Hambal) ifa etmişlər" [Rəhimli & Vəzirov, 2008, s. 297].

1993-cü ildə Əsgər Əsgərovun quruluşunda (rəssam Hüseynqulu Əliyev, dirijor Yusif Əsgərov) tamaşaya qoyulan "Məşhədi İbad"da baş rolu İbrahim Bənəniyarlı ifa etmiş, premyera mayın 6-da olmuşdur.

Naxçıvan Dövlət Milli Dram Teatrı 2025-2026-cı il mövsümünü sentyabr ayının 18-də, Milli Musiqi Günü – Üzeyir Hacıbəyovun 140 illiyi münasibətilə hazırlanmış "O olmasın, bu olsun!" tamaşası ilə açdı. Təxminən 30 illik fasilədən sonra "Hambalın meyxanası" Naxçıvan səhnəsindən yenidən səsləndi.

Təbrizdə doğulan, buradakı teatrda səhnə təcrübəsi qazanan Səməd Mövləvi 1921-ci ildə Naxçıvana köçüb və ömrünün sonunadək burada yaşayaraq taleyini bağladığı teatrda rejissor-aktyor kimi fəaliyyət göstərib. Gözəl səsə malik olan sənətkarın Naxçıvan Teatrına gəlişilə opera və operettaların tamaşaya qoyulmasında bir canlanma yaranır. S.Mövləvi bu teatrda ilk dəfə səhnəyə Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Məcnun rolunda çıxır. 1922-ci il dekabr ayının 14-də ilk tamaşası olan operanın quruluşçu rejissoru Həsən Səfərli, rəssamı Adil Qazıyev, dirijoru Heydər Təhməzbəyov idi.

1923-cü ildə 40 yaşı tamam olan Naxçıvan Teatrına "dövlət" statusu verilməklə o, Naxçıvan Dövlət Dram Teatrı adlandırılmışdır. Bundan ruhlanan kollektiv daha böyük canfəşanlıq və məhsuldarlıqla fəaliyyətini gücləndirmiş, ilbəil öz repertuarını zənginləşdirmişdir. Tamaşaya qoyulan dram, faciə və komediyalarla yanaşı hər il bir opera və bir operettanın da hazırlanması nəzərdə tutulurdu. Belə musiqili əsərlər sırasında Ü.Hacıbəyovun "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu" operaları, "Arşın malalan" operettası da özünəməxsus yer tuturdu.

Artıq 1930-cu illərin əvvəllərində Naxçıvan Dövlət Dram Teatrının truppasına istedadlı gənclərin cəlb olunması ilə əvvəlki quruluşlarda, xüsusən rollarda dəyişikliklər edilir, opera və operettalar da yeni quruluşlarda hazırlanırdı. Bu dövrdə "Ər və arvad" və "Məşhədi İbad" operettalarına da yeni səhnə həyatı verildi.

1937-ci ildə – Üzeyir bəy Hacıbəyovun Naxçıvan MSSR-dən SSRİ Ali Sovetinə deputatlığa namizədliyinin irəli sürüldüyü ildə teatrda böyük bəstəkarın "Ər və arvad" operettası Səməd Mövləvinin quruluşunda tamaşaya qoyuldu. Artıq 1932-ci ildən teatrın truppasına qəbul edilərək öz gözəl səsi və təkrarsız ifası ilə Üzeyir bəyin Leyli, Əsli, Gülçöhrə, Gülnaz kimi qəhrəmanlarına Naxçıvan səhnəsində yeni həyat verən Firuzə Əlixanova bu tamaşada Minnət obrazını da böyük məharətlə ifa etmişdi. Firuzə xanım Naxçıvan Teatrının ilk milli aktrisalarından biri hesab olunur.

## DEPUTAT NAXÇIVANDA

Məhz 1937-ci ildə öz seçicilərilə görüşmək üçün Naxçıvana gələn Ü.Hacıbəyov şəhərdə olduğu müddətdə həm də muxtar respublikanın mədəni həyatı, musiqi mühitilə maraqlanır, ziyalılarla, musiqiçilərlə, teatrın kollektivilə görüşür, "Ər və arvad" operettasının məşq prosesində iştirak edərək məmnunluğunu bildirir və yaradıcı heyətə uğurlar diləyir.

Muxtar respublikanın rəhbərliyilə söhbətində Üzeyir bəy burada musiqi mühitinin daha da böyüməsi və bu sənətin peşəkarcasına formalaşıb inkişaf etməsi üçün ilkin olaraq Naxçıvan şəhərində, sonrakı illərdə isə rayon mərkəzlərində uşaq musiqi məktəblərinin açılmasının zəruriliyini qeyd edir. Dahi bəstəkarın bu təklifi dərhal yerli hökumətin – Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin 23 avqust 1937-ci il tarixli xüsusi qərarı ilə rəsmiləşir və Üzeyir bəy özü ilə gətirdiyi musiqi tarixinə və nəzəriyyəsinə aid, həmçinin notlardan ibarət müxtəlif adda kitabları və "Berlin" markalı pianinonu yeni açılan Naxçıvan Şəhər Uşaq Musiqi Məktəbinə hədiyyə edir.

Naxçıvan MSSR Xalq Maarif Komissarlığının müvafiq əmrilə yeni musiqi məktəbi bir neçə alət üzrə ixtisaslı müəllim kadrları ilə təmin olunur. Naxçıvan Şəhər Uşaq Musiqi Məktəbinin yetirmələri hesabına artıq 1940-cı illərin əvvəlində muxtar respublikanın musiqi mühitində yeni bir canlanma, yeni nəfəs yaranmış, peşəkar musiqiçilər dəstəsi formalaşmışdı.

1941-ci ilin mayında Naxçıvan Şəhər Uşaq Musiqi Məktəbinin artıq dördillik buraxılış imtahanları yekunlaşır. Bir ay sonra başlayan Böyük Vətən Müharibəsi bütün ölkədə, o cümlədən respublikamızda olduğu kimi, Naxçıvanda da normal həyat axınının səmtini dəyişsə də, yaranmış və-

ziyyət gənc musiqiçiləri ruhdan salmır. Əksinə, öz müəllimlərinin dəstəyilə böyük birlik və həmrəyliklə Üzeyir bəyin onlar üçün açdığı cığırla inamla irəliləmək, o çətin və ağır sınaq dövründə arxa cəbhədəki əmək meydanlarında böyük şücaətlə çalışanların, muxtar respublikada yerləşən hərbi hissələrdəki əsgərlərin, hospitallardakı yaralıların yanında olmaqla öz gözəl ifaları ilə onlarda qələbəyə inam ruhunu yüksəltmək əzmini nümayiş etdirirdilər.

Üzeyir bəyin Naxçıvan səfərləri onun deputat kimi şəxsi katibi və köməkçisi Ramazan Xəlilovun iştirakı ilə olurdu. Sonralar dahi bəstəkarın ev-muzeyinin yaradıcısı və ömrünün sonunadək ilk direktoru olmuş R.Xəlilov o illərdəki xatirələrindən birini belə nəql edirdi: “1945-ci il idi. Üzeyir bəy Naxçıvana, seçicilərilə görüşə getmişdi. Biz orda “Qonaq evi”ndə qalırdıq. Bir gün yanımıza əsgər paltarında cavan bir oğlan gəldi. Müharibədən yenicə qayıtmış bu gənc İslam Səfərli idi. O, Üzeyir bəylə görüşdükdən sonra yazdığı şeirlərini ona göstərdi. Sərraf söz ustası olan böyük sənətkar onları oxudu, hamısını bəyəndiyini söyləyib bu şeirlərdən musiqi süzüldüyünü vurğulayaraq İslamı gələcəyin nəğməkar şairi adlandırdı və onun mütləq ali təhsil alması üçün Bakıya gəlməsini tövsiyə etdi. İslam utana-utana Bakıya gəlmək üçün maddi durumunun məhdud olduğunu bildirdi. Bu zaman Üzeyir bəy mənə işarə etdi ki, bu gənc oğlana pul verim. Mən də zərfə beş yüz manat qoyub ona təqdim etdim. Xudahafizləşərkən Üzeyir bəy onu tezliklə Bakıda gözləyəcəyini söylədi.

Çox keçmədən İslam Səfərli Bakıya gəldi və Üzeyir bəylə görüşdü. Onu mehribanlıqla qarşılayan böyük sənətkar elə İslamın yanında Azərbaycan Dövlət Universitetinin direktoru Abdulla Qarayevə zəng edib istedadlı bir gəncin universitetə qəbul olunmasını xahiş etdi. Qəbul imtahanlarının yekunlaşdığına baxmayaraq A.Qarayev Üzeyir bəyə “Sizin sözünüz bizim üçün qanundur, göndərin gəlsin” – dedi. Beləliklə, gələcəyin nəğməkar şairi İslam Səfərli universitetin tələbəsi oldu və onun təqaüdünü Üzeyir bəy özü verirdi” [Ədəbiyyat qəzəti].

## DAHİ BƏSTƏKARIN YETİRMƏLƏRİ VƏ NAXÇIVAN

1942-ci ildə 25 yaşlı gənc bəstəkar və dirijor Tofiq Quliyev hərbi qulluqçu kimi Naxçıvana göndərilərək şəhərdəki qarnizonun Zabitlər Evinə təhkim olunur. O, burada olduğu illər ərzində Üzeyir bəylə mütəmadi əlaqə saxlayır, dahi bəstəkarın bir deputat kimi tövsiyə və tapşırıqları əsasında yaradıcı fəaliyyətini də davam etdirir, qarnizonun mövcud nəfəs alətləri orkestrini daha da təkmilləşdirir. Yeni ifaçılar cəlb etməklə alətlərin sayını artıraraq orkestrin peşəkarlığına və yüksək səviyyədə formalaşmasına nail olur. Artıq həmin ilin sonlarında Tofiq Quliyevin Zabitlər Evinin nəzdində yerli və Bakıdan dəvət etdiyi bir neçə musiqiçidən ibarət yaratdığı caz orkestri nəinki şəhərdə, eləcə də bütün muxtar respublikada çox məşhurlaşır.

1987-ci il noyabrın əvvəlində Tofiq Quliyevin 70 illik yubileyi münasibətilə böyük bəstəkarımızın həyat və yaradıcılığına, xüsusən onun teatr və kino musiqinə həsr etdiyim məqaləm muxtar respublikanın o dövrdəki mərkəzi mətbuatı olan “Sovet Naxçıvanı” və “Sovetskaya Naxiçevan” qəzetlərində dərc olunmuşdu. Həmin qəzetlərin hərəsindən bir nüsxəni məqələmin qəhrəmanı üçün saxlasam da, bu müddət ərzində bir neçə dəfə telefon danışığımız olsa da, bizim görüşümüz təxminən il yarımdan sonra həyata keçdi. Bu görüş 1989-cu il iyunun 9-da, bəstəkarın mənzilində baş tutdu. Bir saata yaxın davam edən maraqlı söhbətimizə Tofiq müəllim elə Naxçıvan xatirələrilə başladı. Bildirdi ki, müharibənin ikinci ilində Naxçıvana göndərildim. Yola düşməzdən bir gün əvvəl Üzeyir bəylə görüşümüz zamanı mənə hərbi sahədə olsam da, Naxçıvanın musiqi ictimaiyyətilə də sıx əlaqədə olmamı, vaxtaşırı şəhərdəki musiqi məktəbinə baş çəkib dərslərin vəziyyətilə, problemlərlə maraqlanmağımı tapşırdı. Mən də orda olduğum müddətdə dahi bəstəkarımızın tapşırıqlarını yerinə yetirir, bəzən məktubla, imkan düşdükcə isə telefonla ona yeniliklər, çətinliklər barədə məlumat verirdim. Naxçıvan Dövlət Dram Teatrı da “Böyük bağ”da, Zabitlər Evinin lap yaxınlığında yerləşdiyindən hərdən orda tamaşalara da baxmaq imkanım olurdu. O illərdə vətənpərvərlik mövzulu əsərlərlə yanaşı, Üzeyir bəyin opera və operettaları da Naxçıvan Teatrının repertuarında

idi. Mən də dahi bəstəkarımıza əsərlərinin bu teatrda yüksək səviyyədə hazırlandığı və rəğbətlə qarşılandığı barədə xəbər verirdim. Müharibədən sonra Üzeyir bəydə Naxçıvanla bağlı yeni bir ideya yaranmışdı – Azərbaycan Bəstəkarlar İttifaqının muxtar respublika şöbəsini yaratmaq. Lakin 1946-ci ilin ortalarında o, bu məsələni iki ildən sonraya ertələdiyini bildirib buna iki səbəb göstərdi: yerli bəstəkar və musiqişünas kadrların daha da təkmilləşməsi və belə bir yeni təşkilatın muxtar respublikanın 25 illik yubileyi ərəfəsində yaradılmasının daha məqsədəuyğun olması. 1948-ci ildə Üzeyir bəyin dünyasını dəyişməsi onun bu arzusunun bir ildən sonra həyata keçməsinə imkan vermədi.

Sonra Tofiq müəllim Heydər Əliyevi xatırladı. Azərbaycan rəhbərliyində ötən il (1988) edilmiş dəyişikliyin respublikada müsbət əvəzinə mənfi proseslərə səbəb olmasından, ictimai-siyasi hadisələrə lazımi nəzarət edilməməsindən, bütün sahələrdə, o cümlədən mədəniyyətdə yaranmağa başlayan durğunluqdan, qarşısı alınmasa, bu xaosun yaxın gələcəkdə daha da dərinləşəcəyindən böyük təəssüf hissilə danışdı və qeyd etdi ki, məhz bu çətin günlərdə Heydər Əliyevin yeri görünür, bizim indi onun kimi bir rəhbərə ehtiyacımız var.

Heydər Əliyevlə məhz Naxçıvanda tanış olan bəstəkar onun tez-tez Zabitlər Evinə gəlib orkestrin məşqlərini dinlədiyini vurğulayaraq bir məqamı yada saldı ki, növbəti məşqlərdən birində orkestrlə Üzeyir bəyin “Arazbarı”sını ifa etdik. Məşqdən sonra görüşəndə Heydər Əliyev dedi ki, mən “Arazbarı”nı radiodan dəfələrlə xalq çalğı alətləri orkestrinin ifasında eşitmişəm, ancaq belə bir dəyişik və canlı səslənmə ilə ilk dəfədir qarşılaşıram. Mən isə ona yarızarafat, yarıciddi cavab verdim ki, Naxçıvanın təbiəti, onun ab-havası Üzeyir musiqisinə məxsusi çalarlar əlavə edir.

Ü.Hacıbəyovun təşəbbüsü və məsləhətilə, Azərbaycan SSR Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsinin rəisi, görkəmli rejissor Ədil İsgəndərovun müvafiq əmrilə dahi bəstəkarın sevimli tələbəsi olmuş Məmməd Cavadov 1943-cü ildə Naxçıvan Dövlət Dram Teatrına musiqi hissə rəhbəri-dirijor, eyni zamanda uşaq musiqi məktəbinə müəllim təyin olunur.

Daha bir sənət adamının – bəstəkar və dirijor, musiqiçi və pedaqoq Məmməd Cavadovun Naxçıvana gəlişi həm dram teatrda, həm də uşaq musiqi məktəbində əsil mənada bir canlanmaya səbəb olur. O, teatrda musiqiçilərlə çox səmərəli işləməklə, yeni, istedadlı gənclərin buradakı ansambla cəlb edilməsinə, hər bir tamaşa üçün yazılmış və ya tərtib olunmuş musiqilərin yüksək peşəkarlıqla ifa olunmasına, musiqi məktəbində dərs dediyi uşaqların ifaçılıq qabiliyyətlərinin inkişafı ilə yanaşı, şagirdləri üçün əlavə dərs saatları təyin etməklə onların musiqi tarixini və nəzəriyyəsini də dərindən öyrənmələrinə nail olurdu.

Məmməd müəllim Üzeyir bəyin Naxçıvanla bağlı fəaliyyətini əks etdirən xatirələrindən birində belə deyirdi: “1946-cı ildə Üzeyir Hacıbəyov seçicilərilə görüşmək üçün bir neçə günlüyə Naxçıvan Muxtar Respublikasına gəlmişdi. Həmin günlərin birində o, aid təşkilatlarla söhbətlər aparıb Naxçıvanda xalq çalğı alətləri orkestri təşkil olunması üçün təşəbbüs qaldırdı. Beləliklə, 47 nəfərdən ibarət orkestrin smetasını tərtib edib Üzeyir bəyə verdilər.

O, getdiyi yerli təşkilatlara məni də özü ilə aparıb tanış edərək deyirdi: “Məmməd mənim istedadlı tələbələrimdən birdir. O, musiqi sahəsində bacarıqlı oğlandır. Ondan səmərəli istifadə edin”. Sevimli müəllimimin bu tapşırıqları öz nəticəsini göstərdi. Üzeyir bəyin bir müddət sonra Moskvada təsdiq etdirdiyi “Naxçıvan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin smetası” Muxtar Respublika İncəsənət İşləri İdarəsinə gəlib çatdıqdan sonra idarənin rəisi, həmçinin teatrda həmkarım olan rejissor və aktyor, Azərbaycanın əməkdar artisti İsa Musayevin əmrilə məni orkestrin bədii rəhbəri və dirijoru təyin etdilər” [Ədəbiyyat qəzeti].

Tofiq Quliyev Naxçıvanı tərk edərkən yaratdığı caz ansamblını M.Cavadova həvalə edir. O, caz ansamblının məşqlərini elə teatrın yaxınlığındakı Zabitlər Evində davam etdirərək bura yeni mülki musiqiçilər də əlavə edib maraqlı konsert proqramları hazırlayır. M.Cavadov Naxçıvan Teatrında hazırlanan opera və operettaların dirijoru, bir sıra tamaşaların musiqi tərtibçisi, Nağı Nağıyevin 1945-ci ildə səhnəyə qoyulan “Polad” tamaşasının isə bəstəkarı olur.

M.Cavadovla 2000-ci ilin yayında, Bakının Sulutəpə yaşayış massivindəki mənzilindəki ilk görüşümüz zamanı o, özünün şah əsərini, sonralar "Barı Naxçıvan" adı ilə məşhurlaşan mahnısının yaranma tarixçəsini belə nəql edirdi: "1945-ci ilin aprel ayı idi. Mən artıq iki il idi ki, Naxçıvanda idim. Həm Şəhər Uşaq Musiqi Məktəbinin müəllimi, həm də dram teatrda musiqi hissə rəhbəri işləyirdim. Səhər-səhər teatrın bir neçə əməkdaşı ilə "Böyük bağ"da, teatrın qarşısındakı skamyalardan birində əyləşib söhbət edirdik. Birdən mən onlara müraciətlə dedim ki, neçə müddətdir Naxçıvandayam və nə zamandır bu qədim diyarın tarixini, el-obasını, təbiətini tərənnüm edən bir mahnı bəstələmək istəyirəm, ancaq hələ də belə məzmunda yaxşı bir şeir əldə edə bilməmişəm. Onlar cavab verdilər ki, indi Naxçıvanın yaxşı şairləri də cəbhədədir, elə bir şeiri tapmaq çətin olar. Birdən kimsə sevinclə səsləndi: "Odur e şair, özü də düz bizə tərəf gəlir!" Gələn adam yanımıza çatan kimi bizi tanış etdilər. Mən ordubadlı gənc şair Hüseyn Əzimlə tanış olub arzumu ona da çatdırdım. Hüseyn ani fikrə gedib məndən yarım saat vaxt istədi. Mənim "Əlbəttə" cavabımdan sonra o, teatrın binasına daxil oldu. Təxminən 20 dəqiqədən sonra şair bizə yaxınlaşıb əlindəki vərəqi mənə uzadaraq "Baxın görün, qane edirmi?" – dedi. Mən vərəqi alıb oradakı dörd bəndi birnəfəsə oxudum və böyük sevinclə onun əlini sıxıb qucaqladım. Şairə minnətdarlıq edərək hamı ilə xudahafizləşib sürətli addımlarla musiqi məktəbinə yollandım. Ora çatana qədər yol boyu vərəqdəki bəndlərə zümzümə edərək nəzər yetirdiyimdən məktəbdəki pianinonun qarşısında oturduğum zaman demək olar ki, artıq hazır melodiyanı çalmağa başladım. Səsə bir neçə müəllim və şagird də otağa daxil olub bir saatın içində yaranmış yeni mahnımın ilk dinləyiciləri oldular.

Mahnının ilk rəsmi təqdimatı isə elə aprelin 29-da oldu. Həmin gün axşam "Böyük bağ"dakı yay kino-konsert zalında Azərbaycan SSR yaranmasının 25 illiyi və 1 May münasibətilə təşkil olunmuş təntənəli yığıncağın bayram konsertinin proqramına "Naxçıvan" mahnısı da salınmışdı. Nəhayət, bizim nömrə elan olundu. Mənim pianinoda müşayiətimlə həyat yoldaşım Zərqələm xanım mahnını böyük şövqlə oxudu. İfamız bitər-bitməz gurultulu alqış qopdu. Bu alqış hardasa 2-3 dəqiqə dayanmadı, hətta arada "Eşq olsun!", "Ura!" nidaları da eşidilirdi. Biz təzim edib səhnədən çıxır və kəsilməyən alqışlar altında yenidən qayıdıb baş əyməklə tamaşaçılara minnətdarlığımızı bildirirdik. Böyük təkidlə mahnını ikinci dəfə səsləndirdik. Yenə də ifa bitən kimi həmin vəziyyət təkrarlandı. Sonra 3-cü, 4-cü ifa... Biz həmin axşam bu mahnını səhnədə neçə dəfə ifa etsək yaxşıdır? Düz 7 dəfə! Beləliklə, 55 il bundan əvvəl yaranan və bu gün bütün Azərbaycanda "Barı Naxçıvan" kimi məşhurlaşan mahnı ilk təqdimatında 7 dəfə ifa edilməklə həyata vəsiqə alıb" [Bəhmənli, 2002, s. 30; 36].

Üzeyir bəy Hacıbəyovun Azərbaycan musiqisi tarixində özünəməxsus yeri və imzası olan. istedadlı tələbələrindən biri də Məmməd Nəsirbəyov olmuşdur. Məxsusi vurğulamaq lazımdır ki, M.Nəsirbəyov qədim Naxçıvan diyarının ilk ali təhsilli bəstəkarı kimi də məşhurlaşmışdır. "Təkcə onu qeyd etmək kifayətdir ki, XX əsrin ikinci yarısında uşaq musiqi məktəblərində təhsil alan hər bir şagird musiqi nəzəriyyəsi fənnini Məmməd Nəsirbəyovun yazdığı "Musiqi təlimi" dərsliyindən öyrənərək sehrli musiqi aləminə qədəm qoymuşdur. Təəssüf ki, musiqi tariximizə əsərlərilə, eləcə də ictimai xadim kimi xidmətlərilə töhfələr verən Məmməd Nəsirbəyov haqqında məlumatlar mətbuatda öz əksini layiqincə tapmamışdır" [Bakıxanov & Quliyev, 2017, s. 22].

1897-ci ilin iyun ayında Naxçıvan şəhərində, ziyalı ailəsində doğulan M.Nəsirbəyovda musiqiyə maraq oyadan 1911-1912-ci illərdə bir ildən artıq bu şəhərdə yaşayıb-yaradan bəstəkar Zülfüqar Hacıbəyovun buradakı zəngin və səmərəli fəaliyyəti olmuşdur. 1914-cü ilin sonunda Nəsirbəyovlar Bakıya köçürlər. Məmməd 1923-cü ildə Üzeyir Hacıbəyovun təşəbbüsü ilə açılmış musiqi məktəbinə daxil olur, 1927-ci ildən isə Bakı Musiqi Texnikumunda təhsilini davam etdirir. Tələbəlik dövründən Üzeyir bəy tərəfindən Siyasi İdarənin nəzdində yaradılmış xalq çalğı alətləri orkestrində tarzən kimi çalışmağa başlayır. Lirik tenor səsə malik olduğundan 1932-ci ilə qədər Dövlət Opera Teatrının solisti kimi də fəaliyyət göstərir, bir neçə tamaşada müxtəlif obrazlarda səh-

nəyə çıxır, "Arşın malalan" operettasında Əsgərin rolunu məharətlə ifa edir. O, 1931-ci ildən eyni zamanda Radio Komitəsinin də solisti təyin olunur.

Məmməd Nəsirbəyov 1932-ci ildə P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına qəbul olunur. Bir il sonra Bakıya qayıdır və təhsilini Azərbaycan Dövlət Konservatoriyasında davam etdirdi. Təhsil müddətində skripkada, fortepianoda və valtornada ifa etməyi öyrənir, "Azərbaycan xalq musiqisinin əsasları"na dair biliklərisə Üzeyir Hacıbəyovdan alır.

Nəhayət, "1940-cı ildə o, konservatoriyanın bəstəkarlıq fakültəsini müvəffəqiyyətlə bitirir və ömrünün sonunadək sevimli müəllimi Üzeyir bəyin imzaladığı və ona təqdim etdiyi diplomu şərəflə, layiqincə doğruldaraq, dahi sənətkarın xatirəsini əziz tutur" [Bakıxanov & Quliyev, 2017, s. 24]. Cəmi dörd ay sonra – 1941-ci ilin yanvarında M.Nəsirbəyov SSRİ Bəstəkarlar İttifaqının üzvlüyünə qəbul edilmişdir.

Dahi Üzeyir bəyin Naxçıvandan olan sevimli tələbələrindən, istedadlı yetirmələrindən biri də sonralar nəinki muxtar respublikada, hətta Azərbaycan hüdudlarından kənarda belə gözəl bəstəkar-dirijor, yorulmaz xormeyster, görkəmli pedaqoq kimi məşhurlaşan Məmməd Məmmədov olmuşdur.

Hələ yeniyetməlik dövründən musiqiyə olan sonsuz marağı və sevgisi gənc Məmmədin Bakı Musiqi Texnikumunun nəfəs alətləri şöbəsinə aparır. O tələbəlik illərini, xüsusən də Üzeyir bəylə bağlı məqamları belə xatırlayırdı: "Böyük həvəslə gəlmişdim Bakıya, geniş yaradıcılıq arzularım var idi. Lakin birinci kursda olduğum dövrdə bərk xəstələndim. Musiqi texnikumuna rəhbərlik edən dahi bəstəkarımız, gözəl, xeyirxah, unudulmaz şəxsiyyət Üzeyir Hacıbəyovun köməkliyi və qayğısı nəticəsində xəstəxanaya göndərildim. Təsəvvür edin, Bakı şəhərində tək idim, heç kimim yox idi. Böyük şəhərdə, bərkə-boşa düşməyən cavan bir oğlan idim. Üzeyir bəy hətta xəstəxanaya, mənim yanıma gəldi, səhhətimlə, dolanışığımla maraqlandı, mənə maddi, mənəvi cəhətdən arxa oldu, atalıq etdi. Xəstəliyimdən xəbər tutan atam Qəzənfər kişi Bakıya gəlir, Üzeyir bəydən müalicə olunduğum xəstəxananın yerini öyrənir. Üzeyir bəy təkidlə atamın cibinə pul qoyur və işçilərdən birinə atamı xəstəxanaya, mənim yanıma aparmağı tapşırır. Atam məni Naxçıvana gətirir. Sağlamlığımla əlaqədar təhsilim yarımçıq qalır. Onu da qeyd edim ki, o vaxtlar dolanışıq çox çətin idi. Üzeyir bəyin insanlığı ömrüm boyu yaddaşımdan silinməyəcək. Kaş, Üzeyir bəydən çox olaydı, onda heç bir dərdimiz də olmazdı" [Quliyev, 1998, s. 8].

Böyük Vətən Müharibəsinin qanlı döyüşlərindən, od-alovundan şücaətlə çıxıb orden və medallarla doğma şəhərinə qayıdan Məmməd Məmmədov dövlət dram teatrında musiqi hissə rəhbəri, sonralar isə şəhər pionerlər evində özünün yaratdığı "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının rəhbəri kimi çalışmış, ömrünün son 20 ilinisə Naxçıvan Şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbində pedaqoji fəaliyyətə həsr etmişdir. Teatrda işlədiyi illərdə, həmçinin sonrakı 1960-80-ci illərdə burada səhnəyə qoyulan 30-dan artıq tamaşanın bəstəkarı və musiqi tərtibçisi olmuşdur. Onun tamaşalara yazdığı və əsasən naxçıvanlı şairlərin sözlərinə bəstələdiyi digər mahnıları bu gün də teleradio kanallarından, konsert səhnələrindən eşidilməkdədir. Naxçıvan şəhərində 1950-70-ci illərdə keçirilən "Mahnı", "Məhsul" bayramlarının yaradıcısı və təşkilatçısı olan görkəmli bəstəkar və dirijor muxtar respublikada uşaq xorunun əsasını qoymuş, müxtəlif bayramlarda və əlamətdar günlərdə yüzlərlə, hətta 1000-ə qədər məktəblinin iştirak etdiyi xor kollektivlərinə rəhbərlik və dirijorluq etmişdir.

Naxçıvan MSSR əməkdar müəllimi, özünün çoxşaxəli fəaliyyətilə sevimli ustadı Üzeyir bəyin etimadını layiqincə doğruldan Məmməd Məmmədovun adı uzun illər səmərəli fəaliyyət göstərdiyi Naxçıvan Şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbində əbədiləşdirilmişdir.

## NƏTİCƏ

Beləliklə, milli peşəkar musiqimizin banisi, əvəzolunmaz musiqi təşkilatçısı, dahi bəstəkar, dirijor, musiqişünas, pedaqoq, akademik və ictimai xadim Üzeyir Hacıbəyovun Naxçıvan Muxtar

Respublikasında musiqi mədəniyyətinin təşəkkülü, formalaşması və inkişafı naminə böyük fədakarlıqla həyata keçirdiyi təşəbbüslərə, yerli musiqiçilərə, dram teatrına, uşaq musiqi məktəbinə, digər musiqi kollektivlərinə göstərdiyi diqqət və qayğıya nəzər saldıq, onun müxtəlif illərdə Naxçıvan Teatrında tamaşaya qoyulan əsərlərini və onların yaradıcı heyətlərini xatırladıq, əsasən üç tələbəsinin (üç Məmmədin) şəxsində dahi bəstəkarın yetirmələrinin həyat və fəaliyyətilə yaxından tanış olduq.

1929-cu ildə Şərurda yaradılan yallı ansamblının repertuarının genişlənməsində və tanınmasında da Üzeyir bəyin böyük xidmətləri olub. 1938-ci ildə Moskvada keçirilən "Azərbaycan mədəniyyəti ongünlüyü"ndə məhz onun xeyir-duası ilə bu ansambl maraqlı proqramla çıxış edib. Sonra "Şərur Xalq Yallı Ansamblı" adını alan kollektiv 1970-ci illərdən başlayaraq dünyanın bir çox ölkəsində festivallarda iştirak edib, diplom və mükafatlara layiq görülüb.

Naxçıvanlıların sevimlisinə çevrilmiş böyük şəxsiyyətin, dahi sənətkarın anadan olmasının 60, yaradıcı fəaliyyətinin 40 illiyilə əlaqədar olaraq Naxçıvan ziyalılarının "Şərq qapısı" qəzeti vasitəsilə Üzeyir bəyə ünvanladıqları təbrik məktubunda bu fikirlər qeyd olunmuşdur: "Sizin şəxsinizdə bizim musiqimiz bütün sovet xalqları içərisində səslənməkdədir. Bunun əsl səbəbi ondan ibarətdir ki, Siz yaradıcılığınız boyu xalqdan ayrılmamısınız. Siz xalqın arzu və istəklərini, onun şadlığını və qəlb acılarını incə və zəngin musiqinizdə əks etdirmisiniz" [Şərq qapısı].

1975-ci ildə yaradılan Üzeyir Hacıbəyov adına Naxçıvan Şəhər Orta İxtisas Musiqi Məktəbi bu gün Naxçıvan Dövlət Universiteti nəzdində Musiqi Kolleci kimi 50 illik fəaliyyətini uğurla davam etdirir, dahi bəstəkarın zəngin irsinin gənc musiqiçilər tərəfindən dərindən mənimsənilməsi yolunda səmərəli və uğurlu nəticələr əldə edir və yeni-yeni mütəxəssislər yetirməklə muxtar respublikada musiqi mədəniyyətinin inkişafına öz töhfəsini verir.

## ƏDƏBİYYAT

Bakıxanov, T., Quliyev, N. (2017). *Məmməd Nəsirbəyov ~ 120*. Əcəmi.

Bəhmənli, Z. (2002), *Musiqidə yaşanan ömür*. Yurd.

Hacıbəyov, Ü. (1964). *Əsərləri* (1-ci cild). EA Nəşriyyatı.

Xəlilov, Ə. (1964). *Naxçıvan Teatrının tarixi.* Azərbaycan Teatr Cəmiyyəti.

Quliyev, N. (1998). *Bəstəkar Məmməd Məmmədov*. Nafta-Press.

Rəhimli, İ., Vəzirov, C. (2008). *Naxçıvan Teatrı (1883-2008).* Aspoliqraf.
(2014, 11 aprel). "Ədəbiyyat" qəz.

(1945, 21 sentyabr). "Şərq qapısı" qəz.

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 19.01.2026**
**Son variant 19.02.2026**